# Styopka

*hekayə*



■ Vasili Şukşin



Qayğısız, mehriban qıza bənzəyən yaz da gəldi.

Kəndin küçələrində palçıq dizə çıxırdı. Adamlar çəpər boyu taxtalardan tuta-tuta gedirdilər. Əgər "Ətlik kombinatı"nda işləyən cantaraqlardan biri çəpərdən yapışsaydı, hasarın taxtalarından birini qoparardı, bu əmilər çox zırpı, kök, üzləri də cadarlı mahud kimi qırmızıdı. Bağın yiyəsi qışqırırdı:

- Ay heyvərə, çəkmələrinə heyfin gəlir? Sənin ucbatından hər yaz çəpəri düzəltməliyəm?!

- Çəpərə heyfin gəlirdisə, daş salaydın da bura.

- Yoxsa sənin əlin quruyub? Götür özün at da...

- Belə ağıllısansa, onda hürmə.

Gecələr çöllərdə boz qar yavaş-yavaş əriyib çökürdü.

Çayın qırağındakı qovaqlarsa sevinc dolu səslə pıçıldaşırdılar.

Çay aşağı buz axırdı. Gün işığında parıldayan, gömgöy daşların üstüylə səs sala-sala sürüşürdülər. Çayla axan buzlar qırağa yan alır, çınqılları yalayır, qayıdıb yenidən çay aşağı üzürdülər.

Şıltaq yaz küləyi burum-burum bulurur, adamların başını gicəlləndirdi. Kəskin peyin iyi gəlirdi.

Axşamlar yatmazdan qabaq adamlar mehribanlaşırdı.

Həyətlərdə sobaların üstündə şorba qazanları buğlanırdı. Şən qığılcımlar çırta-çırt qopub yan-yörəyə dağılırdı. Elə bil hava da xəyala dalır... Bir gün də ömürdən keçdi. Evlərdə sakit, cansız bir söhbət gedirdi. Sabah ayrı bir gün başlayacaq, başqa qayğılar ortaya çıxacaq. İndisə dincəlmək, siqaret çəkmək, taledən şikayətlənmək, hələ fikrə dalmaq da olar, bəlkə bu həyat, bu tale başqa cür ola bilərdi, heç olmasa bir az bundan yaxşı. Ümumiyyətlə, belə də ötüşmək olar.

Belə bir xoş, dalğın gecədə Stepan Voyevodin uzaq bir yol keçib doğma kəndinə gəldi.

Başqa bir dünyadan gəlmişdi, orda evlər azıydı. Günün isitdiyi dağın döşündə oturub, nəfəsini dərdi. Kəndə baxmağa başladı. Gün ərzində piyada çox gəldiyindən bərk yorulmuşdu.

Beləcə xeyli oturub baxdı, baxdı.

Sonra qalxıb kəndə getdi.

Yermoloy Voyevodin daxmacıqda hələ də əlləşirdi, balaca arabaya çilləyonurdu. Daxmadan şam ağacı yonqarının iyi gəlirdi. Artıq daxmanın işığı azalmışdı. Yermolay gözünü qıydı, rəndəylə balaca ağaca toxunanda adəti üzrə söyüş söydü.

...Orda, qapının ağzında oğlu Stepan birdən zühur etdi.

- Salam, dədə.

Yermolay başını qaldırdı, oğluna çəpəki xeyli baxdı... Sonra barmağını burnunun bir deşiyinə tutub sildi, arvad kimi burnunu sətin köynəyinin ətəyinə sildi, yenə diqqətlə oğluna baxdı.

- Bu Styobkadımı?

- Nədi... Yoxsa tanımadın?

- Ə, sənsənmi? Elə bildim məni qara basır.

Stepan köhnə kisənin iplərini çiynindən sıyırıb kandara qoydu, atasına yaxınlaşdı. Qucaqlaşıb öpüşdülər.

- Gəldinmi?

- Gəldim.

- Elə bil tez gəlmisən? Biz payızda gözləyirdik.

- Yaxşı işlədim... Ona görə vaxtından tez buraxdılar.

- Ay səni. Ata oğlunu gördüyünə sevinirdi. Ancaq bilmirdi nə eləsin.

- Borozya hələ də sağdı - dedi.

- Doğrudan? - Srepan təəccüblləndi. O da bilmirdi nə eləsin. O da sevinirdi

- Bəs hanı o? - soruşdu - hardasa sümsünür. Bu şənbə arvadlar ağları yuyub asmışdılar qurusun- hamısını cırıq-cırıq eləyib. Qancığın balası başlayıb didişdirməyə.

- Köpəyə bax ha.

- İstədim gülləynən vurub öldürüm, dedim gəlib inciyərsən...

Dəzgahın üstündə oturub siqaret çəkdilər. Stepan:

- Bizimkilər sağ-salamatdımı? - soruşdu.

- Eybi yox, yaxşıdılar. Dustaqlıq necə keçdi?

- Yoxsa mədəndəmi işləyirdin?

- Yox, niyə ki, meşə qırırdıq.

- Belə - Yermolay başını tərpədib dedi:

- Hə, adam elədilərmi səni?

- Oo-o... Stepan alınını qırışdırırdı. Məsələ bunda deyil, dədə - dedi.

- Bax, Styopka, sən... - Yermolay siqaretdən saralmış əyri barmağıyla hədələyib dedi: - İndi başa düşdünmü, lazım olmayan yerə yumruğunu düyüb başını soxma. İt uşağı dalaşmağa vaxt tapdılar. Elə onsuz da burda...

Stepan yenə: - Məsələ onda deyil dədə - dedi.

Balaca daxma tez qaranlıqlaşdı. Güclü yonqar qoxusu gəlirdi. Stepan dəzgahın üstündən qalxdı, siqaret kötüyünü ayaqladı. Köhnə kisəsini götürdü.

- Gedək evə.

- Bizim o lal başını qaldırdı - az qalmışdı ərə getsin.

O, gərəkli bir yenilik danışmaq istəyirdi. Nədənsə yadına heç nə düşmədi.

- Doğrudan? - Stepan təəccübləndi.

- Həm gülməlidi, həm də ağlamalı...

Daxmadan atanın səsi gəldi:

- Bir dəfə klubdan gəlirdik. Mənə eyham vurdu, bəs bir oğlan var, ərə getmək istəyirəm. Dedim mən sənə göstərərəm ərə getmək nədi, bir həftə ayaq üstə durammarsan.

- Bəlkə, nahaq belə eləmisən.

- Necə yəni nahaq? Kimsə aldatmaq istəyirmiş, özü də asanlıqla ələ gələni seçibmiş. Yoxsa beləsi kimə lazımdı, ancaq təlxəyə. Mən dedim, elə özünə bab oğlan göstərərəm.

- Gərək həmin oğlana baxaydın. Bəlkə, doğrudan...

Elə bu zaman iyirmi üç yaşlı ətlicanlı, iri həmin "gəlin" evin artırmasına çıxdı. Qardaşını gördü, əllərini birbirinə vurub sevinclə mızıldandı. Onun gözləri göy çiçəyə oxşayırdı, elə sədaqətlə baxırdı, deyirdin indicə ağlayacaq, - M-emm-o, movuldadı, yuxarıdan artırmadan qardaşına baxıb onun gəlməsini gözlədi... bu dəqiqə o elə xoşbəxt idi, kişilərin gözü yaşardı.

Bu da sənin "me"nin kövrəlmiş kimi hikkəli-hikkəli gözünü sildi, Stepana dedi: - Hey gözləyirdi, divara xətlər çəkir, gəlməyinə neçə gün qaldığını hesablayırdı. Axmaq kimi hamını sevir.

Stepan qaşqabağını töküb pilləkənlə yuxarı qalxdı, bacısını yöndəmsiz qucaqlayıb, əliylə kürəyinə vurdu...

Osa bərk-bərk qucaqlayıb qardaşının üzünü, dodağını, alnını öpdü.

- Yaxşı, bəsdi. Stepan onun qolları arasından çıxmaq istədi. Bacısı belə ürəkdən öpəndə o, həm utanır, həm də sevinirdi, bacısını geri eləyə bilmirdi.

- Di qurtar... Yaxşı, bəsdi - Stepan həyacanla deyirdi.

Atası gözlərini yenə silib: - Yaxşı, qoy öpsün, - görürsən səndən yana darıxıb - atası dedi. Sözün qısası, Stepan bacısının qucağından çıxdı, sevinclə ona baxıb:

- Yaxşı, necəsən? - dedi.

Bacısı işarəylə yaxşıyam - dedi.

Ata artırmaya qalxıb - Onun kefi həmişə yaxşıdı, gedək ananı sevindirək.

Ana ağlayıb, oxşayırdı.

- Allah, mənim duaların sənin yanına uçub gəldi, eşitdin Allah...

Hamı özünü itirmişdi.

- Sən, ana, həm sevinirsən, həm kədərlənirsən - Yermolay soyuqqanlılıqla dedi: - Anaların hamısı bir-birinə oxşayır - Nəyə burnunun suyunu axıdırsan?

- Yaxşı, indi sevinmək lazımdı.

- Sevinirəm də, bəyəm sevinmirəm?

- Yaxşı zarıldama.

- Sağ-salamatsanmı, bala? - ana soruşdu. Bəlkə azarladığına görə tez buraxıblar?

- Yox, hər şey qaydasındadı. Çox işlədiyimə görə buraxdılar.

Qonşular, doğmalar axıb gəldi.

İlkin gənc, girdə, xoş sifət ipək kimi yumşaq, gözəl qonşu qadın Nyura Aqapova qaçıb gəldi. Dəhlizdəcə hədsiz sevinc, həyacanla dedi:

- Mən pəncərədən baxırdım: deyirəm ay allah, bu gələn Stepandı?! Gerçəkdən...

Stepan ona baxıb gülümsündü.

- Salam Nyura - dedi.

Nyura isti qollarıyla gözəl qonşusunu qucaqladı, ac, dul dodaqlarını Stepanın çatlamış, tütün, çöl havası qoxuyan dodaqlarına yapışdırdı...

Stepan dedi:

- Sənin istin adamı soba kimi qızdırır. Hələ də ərə getməmisən?

Hardadı o oğlanlar? Bütün kənddə vur-tut iki cüt bir tək kişi var.

- Yoxsa sənə beşimi gərəkdi?

- Bəlkə səni gözləmişəm? - Nyura güldü, Stepanın anası qısqanclıqla dedi:

- Rədd ol, Nyura! Aralıqda hərlənmə - qoy başqaları da danışsın. Çoxmu əziyyət çəkdin, mənim balam?

- Yox əşi, - Stepan danışmağa başladı. Ora yaxşıydı.

Məsələn, mən burda ayda bir yol kinoya baxıram, eləmi? Ancaq orda həftədə iki yol baxırdım. İstəyirsən qırmızı guşəyə get, orda sənin üçün "sovet adamının mənəviyyatı", yaxud, "kapitalist ölkələrində fəhlə sinfinin vəziyyəti" haqda leksiya oxuyurlar.

Nyura şəncəsinə soruşdu:

- Necə bəyəm, sizi ora kinoya baxmağa yığıblar?

- Niyə?... Şübhəsiz, təkcə kinoya yox...

Ata söhbətə qoşuldu: - Tərbiyə edirlər. Axmaqları ağıllandırırlar.

- Maraqlı adamlar çoxdu - Stepan sözünə davam elədi - Elə qartallar var!.. Oxumuşlar da var. Bizim briqadada iki mühəndis vardı...

- Onları nəyə görə tutmuşdular?

- Biri fabrikdə nəsə bir qəzadan, başqası, dolaşdığına görə. Şüşəylə kiminsə başına vurubmuş...

Atası şübhələnib dedi:

- Bəlkə, alladırmış, mühəndis deyilmiş?

- Orda allatmaq olmaz. Orda hamı bir-biri haqqında ətraflı bilir.

- Babat yemək verirdilər? - Anası soruşdu.

- Eybi yox, yaxşıydı, demək olar həmişə bəs edirdi.

Yenə adamlar gəldi. Stepanın yoldaşları da gəldi. Voyevodingilin balaca daxmasında tünlük idi.

Stepan dönə-dönə danışdı:

- Yox əşi, ora, ümumiyyətlə, yaxşıydı! Siz burda tez-tezmi kinoya baxırsız? Ancaq biz həftədə iki yol. Sizin yanınıza artistlər gəlirmi? Ancaq ora, bizim yanımıza tez-tez gəlirdilər. Yemək də bəs eləyirdi... Bir yol sehrbaz gəlmişdi. Suyla dolu stəkanı bax belə götürür...

Stepanı maraqla dinləyir, bir az da təəccüblənirdilər, "hm", "ba", "ha" deyirdilər, söhbətə nəsə əlavə etməyə çalışırdılar, başqaları yeni suallar verir, Stepan da təzədən danışırdı. O, çoxdan gözlədiyi bu görüşdən, sorğu-sualdan, başına gələnləri söyləməkdən yüngülvari keflənmişdi. Hiss eləmədən danışığına nəsə əlavə edirdi.

- Nəzarət məsələsi ciddiydimi?

- Boş şeydi! Son zamanlar bizi sovxoza işləməyə aparırdılar, demək olar, orda tamamilə təkbaşına qalırdıq.

- açan olurdumu?

- Qaçan olurdu, ancaq az. Lap qaçdın, hara qaçacaqsan?

- Deyillər, adam günahkar olanda daş kameraya salırlar...

- Daş kamera, belə şey az-az olur, adamın çox günahı olanda belə eləyillər... O da ceyillərı, ancaq bizi az-az hallarda eləyirdilər.

Bir sadəlövh oğlan dedi: - Yəqin cibgirləri eləyirlər! Görünür bir-birindən nəsə oğurlayırlar.

Stepan güldü. Sonra hamı güldü, maraqla Stepana baxdılar.

- O barədə bizdə ciddiydi - Stepan dedi. - Orda birinnən azacıq bir şey sezsələr, o dəqiqə qoduqluğa basallar.

Anasıyla lal bacısı əlüstü hamamı yandırdılar, atası dükana qaçdı... kimisə öz cındır paltarında donuz piyi, kimisə nə vaxtdansa qalmış qoğal, kimisi baldan düzəldilmiş pivə gətirdi - gözlənilmədən bayram oldu, ev yiyəsi hazırlaşmağa macal tapmadı. Alaqaranlıqda masanın başında oturdular.

Yavaş-yavaş ara qızışdı, hamı birdən danışır, bir-birinin sözünü kəsib gülüşürdülər... Stepan masanın başında əyləşmişdi, sağa-sola dönüb, yenə danışmaq istəyirdi, ancaq daha ona yaxşı qulaq asmırdılar. Buna baxmayaraq, o buna daha məhəl qoymurdu. Adamların burda bir yerə yığışıb əyləşməsinə, deyib gülməsinə Stepan sevinirdi...Yığışanları daha da əyləndirmək üçün yenicə qayıtdığı yerdən -dustaq həyatından yanıqlı-yanıqlı oxudu:

*(Davamı səhifə 23-də)*

*(Əvvəli səhifə 22-də)*

# Styopka

*hekayə*



*Bağışla, məni bağışla an...am,*
*Bütün günahımı bağışla mənim,*
*Heç zaman sözünə qulaq asmadım...*

Daxmaya bir dəqiqə sükut çökdü. Stepanı başdan ayağa qəribə bir hiss - xeyirxahlıq, insanlara sevgi hissi ağuşuna almışdı. Sərxoşluğu hiss olunurdu. O indi də həbsdə olan bir qızın dilindən oxudu:

*Dustaqlığı bir zarafat bilirdim,*
*Bu zarafat məhv elədi özümü!-*

Mahnı xoşa gəlmədi - suçlunun peşmançılığını qiymətləndirmədilər, mahnı onları tərpətmədi...

Həmin sadəlövh oğlan həyəcanla - “blatnoy” qız imiş! - dedi. O, elə bilirdi dustaqda olanların hamısı cibgir, fırıldaqçılardı. Sözünə əlavə edərək - Sakit olun - dedi.

Masanın o biri başından anası:

- Oğlum, görünür orda çox qadın var? -soruşdu.

- Kifayət qədər var.

Söhbət qızışmışdı, hamıya elə gəlirdi ordakı qadınların həyatı yaxşı ola bilməz.

- Yəqin uşaqları qalıb başlı-başına.

- Uşaqları verirlər yetimxanaya...

Yaxşıca içmiş bir kişi kəskin - Mən qadını tutmazdım, yazığım gəlməzdi, tumanını başına keçirib qayışla başına-başına vurardım! - dedi.

- Xeyiri yox -Yermolay onunla höcətləşdi. - Əgər sən onu döysən... o bir az da kinli olacaq.

Cavanlıqda mən özümünkünü iki yol çilovla döydüm - o, acıqdan lal qız doğdu.

Kimsə mahnı oxudu. Öz doğma mahnısını.

*Binədən cütcüydü dədəm,*
*Mən də onunla işlərdim...*

Ağız-ağıza verib mahnını qabaqca dağınıq halda oxudular, sonra düzəltdilər.

*....Üç gün, üç gecə əlləşdim -*
*Bacımı qurtardım əsirlikdən...*

Mahnı onları tutmuşdu - Hər kəs gözünü qarşısındakı masaya zilləyib ürəkdən oxuyurdu.

*... Güllə atdı amansız adam.*
*Öldürdü gözəl bacısını.*

*Qalxdım uca dağlara*
*Doğma kəndə baxmağa:*
*Yanır, doğma kəndimiz*
*Yanır bütün vətənim!..*

Stepan yumruğunu masanın taxtasına vurub ucadan dedi:

- Sən məni sevmirsən, yazığın gəlmir! Mənim hamınıza hörmətim var, ah, şeytanlar! Sizdən yana bərk darıxmışdım.

Qapının kandarında tənbəki tüstüdumanında qarmon inildəyirdi. Kimsə gedib qarmon çalanı gətirmişdi. Ağlaşırdılar... Mahnı öldü. Masadan aralanıb dərhal “mahnının” ritminə düşməyə çalışırdılar. Ayaqlarını döşəməyə bir az da bərk vurmağa çalışırdılar.

Qadınlar halay vurub gedirdilər. Lal qız da yaylığını başının üstündə yellədə-yellədə ayağa qalxıb oynayanlara qoşuldu. Barmaqla onu göstərib gülürdülər... O da gülürdü - və o, xoşbəxt idi. Vera! Vera! Sən də oxu, həddən çox içmiş kişi qışqırdı - niyə boş- boşuna oynayırsan, sən də oxu! - heç kim onu eşitmədi, özü öz zarafatına gülüb uğunub getdi.

Stepanın anası yaşlı bir qadına deyirdi:

- Eh, yuxuda üstümə necə atıldısa, vay anam, az qaldı canım çıxsın.

Başımı gücnən qaldırıb soruşdum: “Xeyirdi, yoxsa şər? “ -

O, qulağıma pıçıldadı: “xeyirdi!”

Yaşlı qadın başını tərpədib:

- Xeyirdi? - dedi.

- Xeyirdi, xeyirdi. Beləcə, aydınca xeyirdi. - dedi.

- Qabaqlayıb da səni.

- Qabaqladı, qabaqladı. Mən də axşamdan fikirləşirəm qonşum hansı xeyirdən danışır, elə belə fikirləşirdim, qapı açıldı, gördüm durub astanada.

Yaşlı qadın “Aman allah, aman allah” - deyib örpəyinin ucuyla gözünü silib: - İşə bir bax - dedi.

Qadınlar Yermolayı ortaya çəkdilər. Yermolay çox fikirləşmədən bir ayağını yerə döyə-döyə getdi.

“Op-pa, at-pa, op-pa, at-pa” - deyirdi. Ayağını yerə elə döyürdü dolabdakı qablar cingildəyirdi.

- Hey, Yermolay! Tərpən! Bu gün sənin günündü, tərpən Yermolay! - qışqırırdılar.

Yermolay hey “At-pa, op-pa”, - deyirdi, qırx il dülgər dəzgahı arxasında işlədiyindən əyilmiş beli düzəlmirdi, beləcə də oynayırdı, iri, düyün-düyün barmaqlı əlləri bədəni boyunca ağır-ağır sallanırdı. Yermolay sevinirdi, bütün kədərini unutmuşdu - bu günü çox - düz beş iliydi gözləmişdi.

Stepan da ona qoşuldu, ayaqlarını ağır-ağır ritmsiz yerə döydü.

- Görüm ha, dədə...

- Görüm ha - dədə, bala! Cəld olun!

- Deyəsən, Stepan iş - zad görməyib, ona görə belə atlanır.

- Dediyinə görə orda yaxşı baxırlar. Yemək verirmişlər...

- Orda verirlər - ha verirlər, gözlə.

Yermolay “At-ta, op-pa”! - deyib hərəkətini oğlunun oynamasına uyğunlaşdırmaq istəyirdi.

İkisi də oynayammır, ancaq oynamağa çalışırdılar. Bu camaatın xoşuna gəlirdi, onlara ləzzət eləyirdi.

Beləcə kef edirdilər.

Sahə milisinin daxmaya haçan gəldiyini sonra heç kim xatırlamadı. Ancaq Stepana yaxınlaşıb nəsə dediyini gördülər. Stepan onunla küçəyə çıxdı. Daxmada hamı kefindəydi: elə bildilər belə də lazımdır, Stepan kənd sovetində gedib bütün kağız - kuğuzunu sahmana salmalıdır. Yalnız lal qız nəsə narahat oldu, həyəcanla mızıldandı, atasını dartışdırdı. Ata, kefli -kefli onu qovdu.

- Əl çək görüm! Rədd ol, get oyna.

Onlar eşik qapısından çölə çıxıb dayandılar. Sahə milisi Stepanın üzünə baxıb soruşdu:

- Ə, yoxsa dəli - zad olmusan?

Stepan kürəyini eşik qapısının dirəyinə söykənib güldü.

- Qəribədimi? Eybi yox... Olur da.

- Axı sənin üççə ayın qalırdı!

- Sənnən yaxşı bilirəm... Siqaret ver.

Sahə milisi ona siqaret verdi, özü də çəkdi.

- Gedək.

- Gedək.

- Evdə deyiləsi sözün varmı? Yoxsa nigaran qalarlar...

Bu gün lazım deyil, qoy kef eləsinlər. Səhər deyərsən.

- Üççə ay dözməyib qaçmaq! - deyə milis yenə təəccübləndi. Bağışla məni, hər cür adam görmüşəm, ancaq sənin kimi ipləməsini görməmişəm. Sən niyə belə elədin?

Stepan addımlayırdı, əllərini şalvarının cibinə soxdu, alaqaranlıqda doğma daxmalar, eşik qapısı, çəpərin dirəyi ona tanış gəldi... Uşaqlıqdan ona tanış olan yaz havasını içinə çəkib fikirli-fikirli gülümsündü.

- Hə?

- Hə olub?

- Niyə belə elədin?

- Qaçmağı deyirsən? Bax bircə yol gəzməkdən yana... Darıxmışdım. Yuxular əzab verirdi.

- Axı üççə ayın qalırdı! - sahə milisi az qala qışqırırdı. İndi il yarım da üstünə gələcək.

- Eybi yox... İndi mən bərkidim. Gedib yata bilərəm. Yoxsa yuxular məni əldən salmışdı. Hə, gecələr kənd yuxuma girirdi. Yazda kəndimiz gözəl olur, eləmi?

Sahə milisi fikirli “hmm - hə” -dedi. Danışmadan çox getdilər.

- Axır ki, qaçdın da!.. Tək qaçdın? Üç nəfəriydik.

- Bəs onlar hanı?

- Bilmirəm. Dərhal hərə bir yana qaçdı.

- Bəs neçə günə gəlib çatdın?

- İki həftəyə.

- Tfu!.. Lənət sənə, di get yat.

Sahə milisi kənd sovetliyində protokol yazmağa başladı. Stepan qaranlıq pəncərəyə fikirli-fikirli baxdı. Dəmliyi ötdü. Milis protokoldan ayrılıb “silahın yoxmu?” - soruşdu.

- Ömrümdə belə axmaq şeyi özümlə gəzdirməmişəm.

- Yolda nə yeyirdin?

- O ikisi vardı e, tədarük görmüşdülər.

- Bəs onların vaxtına nə qədər qalırdı?

- Çox...

- Heç olmasa onların qaçmağa əsası vardı, bəs sən niyə onlara qoşuldun?

- Yaxşı, baş-beynimi apardın! - Stepan acıqlandı. - Öz işini gör, mən ki, sənə mane olmuram.

Sahə milisi başını bulayıb yenə kağızın üstünə əyilib dedi:

- Mənə zəng edəndə, düzü inanmadım. Dedim yəqin səhv salıblar - dünyada belə axmaqlıq olmaz. Sən demiyəsən, gerçəkmiş.

Stepan pəncərədən baxıb, sakitcə nə haqdasa düşünürdü.

Söhbətcil milis dözəmməyib yenə soruşdu:

- Yəqin onlar gülürmüşlər sənə?

Stepan onu eşitmədi.

Milis maraqla Stepana uzun müddət baxıb-baxıb:

- Üzdən axmaq adama oxşamırsan - deyib, protokolu yazmağa davam elədi.

Bu vaxt lal qız qapını açıb içəri girdi. Qapının ağzında dayanıb qorxmuş nəzərləriylə milisə və qardaşına baxdı...

- Me-mm? - Qardaşından soruşdu.

Stepan özünü itirdi.

- Sən bura niyə gəldin?

- M-mm?! - eləyib milisi göstərdi.

Milis soruşdu:

- Bu bacındır, yoxsa?

- Hə...

Lal masaya yaxınlaşdı, milisin çiyninə toxundu, qardaşını göstərib əliylə soruşdu: “Onu niyə apardın?!”

Sahə milisi başa düşdü.

- O,... - deyib Stepanı göstərdi. Dustaqdan qaçıb! Qaçıb! Başa düşdünmü, qaçıb - Milis pəncərəni göstərib, adamların necə qaçmasını başa saldı. - Ağlı başında olanlar qapıdan çıxırlar, qapıdan, ancaq o, pəncərədən - hop, getdik e. İndi onun işi... Milis barmaqlarını bir-birinin üstünə qoyub Stepanı qıza göstərdi. İndi onun yenə iki ili var, iki! İki barmağını aralayıb təntənəylə silkələdi.

- Yenə iki il!

Lal anlamağa başladı... hər şeyi başa düşəndən sonra onun qorxmuş key, gözlərində elə qorxulu ağrı göründü ki, milisin sözü ağzında qaldı. Lal qardaşına baxdı. Stepan ağappaq olmuşdu, o da bacısına baxırdı.

- Hə, indi ona de ki axmaqdır, ağıllı adamlar heç vaxt belə iş tutmur...

Lal boğuq səslə qışqırıb özünü Stepanın üstünə atdı, onun boynundan asıldı...

- Apar onu, - Stepan xırıltılı səslə xahiş elədi. Apar!

- Mən onu necə aparım?

- Apar, alçaq! - Stepan yad bir səslə bağırdı - Apar onu, yoxsa stulu başına çırparam!

Milis sıçrayıb qızı çəkib qardaşından ayırdı...

Lal bacı qardaşına can atır, mızıldanırdı, başı titrəyirdi.

- De, alladırdım, zarafat eləyirdim... Apar onu!

- Acıl başımdan!.. Vaxtım hardandı sənə baş qoşum - milis söydü, lalı qapıya sarı çəkdi. O, indi gələcək, boşlayacam gəlib sizinlə görüşsün!.. - deyib lalı geri itələməyə çalışıdı. - İndi o gələcək!.. Sözün qısası, milis onu qapıya sarı çəkib geri itələdi. - Gücə bax ha! - Milis qapını örtdü. - Tfu... Gör necə iş tutmusan - tamaşa elə indi.

Stepan oturdu, əlləriylə başını sıxıb, bir nöqtəyə baxdı.

Sahə milisi yazıb qurtarmadığı protokolu səyyar çantasına qoyub telefona yaxınlaşdı.

- Maşın çağırıram - gedəcəyik rayona, hamınız dəlisiniz vallah, lənətə gələsiz. Lap boğaza yığdınız məni.

Lal kəndin içindən keçən küçənin ortasıyla büdrəyə-büdrəyə ayağı bir-birinə dolaşa-dolaşa qaçır, acı-acı ağlayırdı.

O, qaranəfəs qaçır, hamıya, məsələdən xəbəri olmayan oynayanlara qışqırıb demək istəyirdi ki, qardaşını nəyə görəsə yenidən aparmaq istəyirlər. O tələsirdi.

**Rus dilindən tərcümə edən:**
**Azər Abdulla**